Beynəlxalq Video müsabiqə - 2021-ci il buraxılışı "Yeni başlanğıc. Yeni baxış. Yeni şəhər. "

TƏSVİRİ

Dünya İrs Şəhərləri Təşkilatı (OWHC) Beynəlxalq Video müsabiqənin 6-cı buraxılışının başlamasından qürur duyur. Bu müsabiqə 14 -17 yaş və 18 -21 yaşlarında olan iki yaş qrupu gənclər üçün nəzərdə tutulub. Bu dəvətlə, OWHC şəbəkəsində qeydiyyatdan keçən və onun bir hissəsi olan şəhərlərin gəncləri bir Dünya İrs şəhərində maksimum beş dəqiqəlik video hazırlamağa çağrılacaq və video OWHC YouTube kanalında yayımlanacaq.

Gənclərin hazırladığı videolar əvvəlcə öz şəhərlərində bir seçimdən keçəcək. Hər şəhər iştirak edən yaş qruplarının hər biri üzrə qalib video seçəcək. Yerli səviyyədə qalib videolar daha sonra beynəlxalq münsiflər heyətinə təqdim ediləcək. Hər iki beynəlxalq qalibə maraqlı hədiyyələr veriləcək!

Müsabiqənin məqsədi gənclərin dünya irsi haqqında daha dərindən məlumatlandırmaq, dünya irsinə daha güclü bağlılıq hissini aşılamaq, eləcə də öz şəhərləri, ziyarət etdikləri şəhərlər və ümümilikdə dünya irsi haqqında fikirlərini öz fərdi baxışları ilə ifadə etmələrinə imkan yaratmaqdır. Həmçinin bəşəriyyətin xəzinəsi kimi tanınan şəhərlərlə bağlı OWHC-nin həyata keçirdiyi konservasiya və təkmilləşmə yanaşmasında gənclərin iştirakını təmin etməkdir.

**MÖVZU**

"Yeni bir başlanğıc. Yeni baxış. Yeni şəhər.". Müsabiqə zamanı pandemiya kontekstində bizi əhatə edən hər şeyə fərqli nəzər salınmalıdır. Yaşadığınız ərazini, şəhəri və içərisindəki bütün kiçik xəzinələri və qeyri-adi detalları araşdırmaq üçün kifayət qədər zaman var. Bu kontekst yeni bir başlanğıc üçün- Dünya irsimizi görmək və qiymətləndirmək üçün yeni fürsət təqdim edir. Bu fürsətdən istifadə edib tarixi şəhərinizə dair yeni baxışlarınızı bizə göstərin. Pandemiyadan sonra şəhəriniz dəyişdi? Fərqliliyi necədir? Həyat normala qayıdanda şəhərinizin irsi necə qorunacaq və yaxşılaşacaq?

**MÜSABİQƏNİN QAYDALARI**

Beynəlxalq müsabiqə iki mərhələdə baş tutacaq.

<u>İLK MƏRHƏLƏ: YERLİ SƏVİYYƏ</u>

Bu beynəlxalq müsabiqədə iştirak etmək üçün OWHC şəbəkəsinə daxil olan şəhərlərin merləri və ya onların nümayəndələri, OWHC veb saytında onlayn yerləşdirilmiş qeydiyyat formasını doldurmalıdır (aşağıya bax). Tələblər sadədir. OWHC iştirakçı şəhərlərdən özlərinə uyğun formula görə 14 -17 yaş

və 18 - 21 yaş arasındakı gəncləri yarışmaya dəvət etmələrini tələb edir. Gənclər maksimum 5 dəqiqəlik bir video hazırlayacaqlar. Sonra hər bir şəhər qeydiyyatdan keçən hər yaş qrupu üçün bir video seçəcəkdir ki, bu onlayn formada müsabiqənin beynəlxalq səviyyəsi üçün təqdim ediləcək.

Bu səbəblə yerli səviyyədə gənclərə dəvətin necə ediləcəyi, gənclərin necə qeydiyyatdan keçəcəyi və öz şəhərlərini beynəlxalq səviyyədə təmsil edəcək qalib videoların necə seçiləcəyi ilə bağlı qərarlar vermək hər bir şəhərin özünə məxsusdur.

**İştirakçı şəhərlər üçün təqdimat məqsədli afişalar aşağıda təqdim olunur.**

**Yerli menecerlər:** oxumağa davam etməzdən əvvəl yerli menecerlər üçün praktiki təlimata baxın. (‘Praktiki təlimat’ başlıqlı link)

*İKİNCİ ADDIM: BEYNƏLXALQ SƏVİYYƏ*

Bu səviyyədə, şəhərlərin hər birinin qalib videoları bir yerə toplanır və beynəlxalq qiymətləndirmə edilir. 2021-ci il, 1 mart tarixindən etibarən iştirakçı şəhərlər qalib videolarını təqdim etməyə dəvət ediləcəkdir. Bununla yanaşı, bu səviyyədə OWHC aşağıdakı addımları atmağı öhdəsinə götürür:

- OWHC Youtube kanalında və veb saytında yerli qalib videoların yayımlanması.

- OWHC saytında bu beynəlxalq müsabiqəyə həsr olunmuş bir veb səhifənin yerləşdirilməsi. Bu veb səhifə, xüsusən də iştirak edən şəhərlərin qeydiyyatdan keçməsinə imkan yaradacaq və yerli səviyyədə qalib olan bütün videoların yayımını təmin edəcəkdir .

- Beynəlxalq müsabiqədə qalib gələcək videoları seçəcək üç nəfərdən ibarət münsiflər heyətinin formalaşdırılması. Videolar aşağıdakı meyarlara əsasən qiymətləndiriləcəkdir:

1. Ortaya qoyulan işin keyfiyyəti (20%)

2. Məzmun (40%)
3. Orijinallıq və yaradıcılıq (40%)

- Qeyd etmək vacibdir ki, münsiflər heyəti üzvləri tərəfindən **məzmunun işlənməsinə orijinallıq və yaradıcılıqla yanaşı** daha çox əhəmiyyət verilir.
- Həm beynəlxalq səviyyəli qaliblərə, həm də gənc beynəlxalq qaliblərinə görə fərqlənən şəhərlərə mükafatların verilməsi.

**ŞƏHƏRİN UYĞUNLUĞU**

İştirakçı şəhər üç il və ya daha çox müddətdə OWHC-nin üzvü olmalıdır. Yaxın vaxtda Dünya İrs Siyahısına daxil edilmiş və OWHC-yə üzvlüyü üç ildən az olan şəhər isə qoşulduğu gündən bəri illik ödənişini edibsə uyğun görülə bilər.

Müsabiqə iki yaş qrupundakı gənclər üçün uyğundur: 14-17 yaş və 18-21 yaş. Videonuzu yerli müsabiqəyə təqdim etdikləri zaman tələb olunan yaşda olmalıdırlar. Beləliklə, düzgün qrup yaşında qeydiyyatdan keçdiklərindən əmin olun. OWHC yerli qaliblərdən şəxsiyyətini təsdiqləyən sənəd tələb edə bilər.

Gənclərdən ibarət komandalar qəbul olunur.

Gənclər birbaşa OWHC-də qeydiyyatdan keçə bilməzlər. Şəhərlər bu yarışmada qeydiyyatdan keçərək gəncləri bu yarışmada iştirak etməyə dəvət edirlər.

**VİDEO HAZIRLAMAQ ÜÇÜN TƏLƏBLƏR**

- Videolar maksimum 5 dəqiqə olmalıdır.
- Təqdim olunan videolar müsabiqənin mövzusuna uyğun olmalıdır.
- Videolarda şəhərin vizual elementləri təqdim olunmalıdır; həddən artıq çox mətn yox. Səs effektlərinə və musiqiyə (sözlü və ya sözsüz) icazə verilir.
- OWHC-nin üç iş dilindən birində: fransız, ingilis və ya ispan dilində olan videoya mətni (mübaliğə olmadan) birləşdirmək mütləqdir. Mətn və ya hekayə olmadan göndərilən videolar qəbul edilmir. Gənc iştirakçılar videoda öz baxışlarından bəhs etməlidirlər.
- Videokamera, kamera, kompüter və ya cib telefonu ilə hazırlanmış videolar uyğundur.

- **Yerli hissə üçün**: video Youtube vasitəsilə gənc iştirakçının hesabından təqdim edilə bilər və ya sadəcə orijinal formatı ilə şəhər nümayəndəliyinə göndərilə bilər.
- **Beynəlxalq hissə üçün**: video orijinal formatı ilə OWHC-yə göndərilməlidir. YouTube tərəfindən qəbul edilmiş formatlarda, yəni .wmv (Windows Movie Maker, Windows Media Player, və s.), .Avi (Audio Video Interleave), .mov (iMovie), .mp4 və ya mpeg4 (Quick Time video formatı) şəklində göndərilməlidir, çünki OWHC Youtube kanalında mütləq şəkildə yayımlancaq.
- Videonun başlığı müsabiqənin başlığı və mövzusunu təkrarlamamalıdır

**BEYNƏLXALQ MÜSABİQƏNİN MÜKAFATLARI**

Hər iki yaş qrupunun qalibləri rəsmi olaraq 2021-ci il sentyabrın 7-dən 10-dək Kvebek (Kanada) şəhərində keçiriləcək OWHC Dünya Konqresi zamanı təşkil ediləcək bir mərasimdə elan ediləcəkdir. Qalib gələn şəhərlərin merləri və ya nümayəndələri nitq söyləməyə dəvət ediləcəklər. Konqresdən sonra qaliblərə aşağıdakı beynəlxalq mükafatlar veriləcək:

- 14-17 yaşlı kateqoriyanın qalibi üçün 1500 ABŞ dolları
- 18-21 yaşlı kateqoriyanın qalibi üçün 3000 ABŞ dolları

Beynəlxalq səviyyəli gənc mükafatçılar və hər iki qalib gələn şəhərin merləri OWHC tərəfindən fəxri sertifikatla təltif olunacaq.

Mükafat bir komanda tərəfindən qazanılarsa, verilən mükafatı bərabər şəkildə ayırmaq komandanın məsuliyyətində olacaqdır. Komandanın nümayəndəsi təyin ediləcək. Komandanın hər bir üzvünə müvafiq qaydada fəxri fərman veriləcək.

Beynəlxalq səviyyəli finalçıların hər birinə iştirak sertifikatı veriləcək.

**CƏDVƏL**

**1 dekabr 2020 - 1 mart 2021**

Dünya İrs şəhərlərinin müsabiqədə qeydiyyatı.

Video müsabiqənin yerli səviyyədə tanıdılması.

Gənc iştirakçıların video hazırlamasının başlanılması.

**1 mart - 1 iyun 2021**

Gənc iştirakçıların video hazırlamaqlarının davam etməsi.

İştirakçı şəhərlərə bir və ya iki yaş qrupu üzrə OWHC-ə yerli səviyyədə qalib video(lar) təqdim etmələri üçün verilən müddət.

**1-18 iyun 2021**

OWHC Veb saytında və Youtube kanalında yerli səviyyədə finalçıların videolarının onlayn yayımı.

**İyun / iyul 2021**

Beynəlxalq səviyyəli iki mükafatçını müəyyənləşdirmək üçün OWHC münsiflər heyətinin müzakirələri.

**2021-ci il Dünya Kvebek Konqresi (7-10 sentyabr, 2021)**

OWHC-nin XVI Dünya Konqresində təşkil edilən mərasim zamanı 14-17 və 18-21 yaş qrupları üzrə qaliblərin elanı.

**Əlaqə:** Müsabiqə ilə bağlı hər hansı bir sualınız üçün Layihə meneceri Andréanne Charest-ə yaza bilərsiniz: acharest@ovpm.org

**Qeydiyyat forması**

Formanın bu hissəsi iştirak etmək istəyən **şəhərin meneceri** tərəfindən *1 Mart, 2021-ci il tarixinə kimi* doldurulmalıdır.

**İştirak edən şəhər**

Merin adı *

Dünya İrs şəhərinin adı *

Müsabiqənin yerli hissəsindən məsul şəxsin adı *

Məsul şəxsin vəzifəsi *

Məsul şəxsin elektron poçt ünvanı *

İştirakçıların yaş qruplarını qeyd edin *

14-17 yaş

18-21 yaş